**UOT 327; 930.22**

# İRANIN POSTSOVET MƏKANINDA SİYASƏTİNİN ÜMUMİ XARAKTERİSTİKASI

**Əlimusa İBRAHİMOV***

***Açar sözlər:*** *İran, islam, postsovet məkanı, Rusiya, Qərb*

1991-ci ildə dünya birliyi özünü beynəlxalq münasibətlərin tamhüquqlu iştirakçısı elan etmiş 15 dövləti öz subyektləri siyahısına daxil etdi. Bu dövlətlərin hamısı o dövrdə dağılmış Sovet İttifaqının keçmiş respublikaları idi. Ötən müddətdə postsovet məkanının bütün ölkələri müstəqil dövlət kimi çətin təşəkkül yolu keçmişdir və hazırda bir çox xarici dövlətlərlə bərabərhüquqlu münasibətlər saxlayır.

Bu illər ərzində postsovet məkanının ölkələri qlobal və regional əhəmiyyətli bir çox siyasi aktorun diqqətini cəlb etmişdir. Onların arasında ABŞ, Qərbi və Şərqi Avropa, Çin, Türkiyə, Pakistan, Hindistan, ərəb dövlətləri qeyd olunmalıdır. Bu fonda İran son vaxtlar daha çox və tez-tez özünü dünya geosiyasi proseslərində daim artan rol oynayan ölkə kimi göstərməkdədir. Bu regional, bir sıra göstəricilər üzrə isə qlobal səviyyəli dövlət ildən-ilə özünün geosiyasi təsirini, o cümlədən postsovet məkanında nüfuzunu gücləndirir. Onun rəhbərliyi hesab edir ki, postsovet ölkələri ilə şaxələndirilmiş dialoq İranın müasir dünyada mövqeyini çətinləşdirən və ona ciddi ziyan vuran siyasi və iqtisadi təcrid vəziyyətindən çıxmasına əməli təkan verir. Bu, xüsusilə 2015-ci ilin iyul ayında Vyanada dünyanın 6 aparıcı dövləti ilə razılaşma imzalanmaqla qismən həllini tapmış nüvə enerjisi problemi ilə bağlıdır. İran postsovet ölkələri ilə dolğun dialoq həyata keçirir, Avropa, Yaxın Şərq, Cənub-Şərqi Asiya və Asiya-Sakit okean hövzəsi ölkələri ilə əlaqələrini intensivləşdirir.

Postsovet məkanında İran dialoqunun əsas problemləri və nailiyyətləri konkret nümunələrlə göstərilə bilər. İranın mövqelərinin kifayət qədər güclü və sabit olduğu Mərkəzi Asiya regionuna nəzər salaq. İran tədricən bu regionun ölkələri üçün Rusiya və Çindən sonra üçüncü güc mərkəzinə çevrilir. Bəzi parametrlərə, məsələn, siyasi nüfuza görə, o, bu nüfuzlu aktorlarla müqayisə oluna bilməz, lakin son onillikdə İran bu regionda müxtəlif sahələrdə fəaliyyətini dinamik şəkildə artırır və bölgənin inkişafının ən mühüm proseslərində iştirak edir.

MərkəziAsiya və İran inteqrasiya üçün güclü əsasa malikdir, onları ümumi tarix, mentalitet oxşarlığı, islam dininə mənsubiyyət birləşdirir. Eyni zamanda, tərəflər həmişə dialoqun daha da zənginləşdirilməsi üçün bütün potensial imkanlardan istifadə olunmadığını vurğulayır. Lakin postsovet məkanının Mərkəzi Asiya arealı yekcins deyildir. Buna görə də hər bir ölkə İranla münasibətlərin özünəməxsus xüsusiyyətlərinə malikdir. Türkmənistan və Tacikistan üçün İran siyasi və iqtisadi sahələrdə əsas tərəfdaşa çevrilmişdir. Türkmənistan üçün çoxəsrlik tarixi, dini və mədəni yaxınlıq ənənələri önəmlidir. Aşqabad cənub qonşusunu güclü regional dövlət, bölgədə sülhün, sabitliyin və təhlükəsizliyin təminatçısı kimi nəzərdən keçirir. İki ölkəni beynəlxalq və regional problemlərə dair mövqelərin tam uyğunluğu da birləşdirir.

İran Tacikistana münasibətdə də eyni mövqedən çıxış edir. Postsovet dövründə İran Tacikistanla çoxəsrlik ortaq tarixə və mədəni yaxınlığa əsaslanan çoxşaxəli qarşılıqlı münasibətlər qurmuşdur. İran 1991-ci il sentyabrın 7-də Tacikistanı suveren dövlət kimi tanıdı və tezliklə Düşənbədə səfirlik açdı. Bu, Tacikistan paytaxtında fəaliyyətə başlayan ilk diplomatik missiya idi. İran və Tacikistan arasında münasibətlər strategiyası başlanğıcdan etibarən mədəni-tarixi yaxınlıq amilindən istifadə etmişdir. Eyni zamanda, İranın Mərkəzi Asiya ölkələri ilə münasibətlərin həyata keçirilməsinə getdikcə daha praqmatik yanaşması səbəbindən, prioritetlərin ticari və iqtisadi əməkdaşlıq sahəsinə məntiqi keçidi meyli həlledici xarakter kəsb etmişdir. Əməkdaşlığın əsas istiqamətləri isə ener-

**Siyasi elmlər üzrə fəlsəfə doktoru, Bakı Dövlət UniversitetininBeynəlxalq münasibətlər fakültəsinin müəllimi*
*E-mail: ialimusa@mail.ru*

getika, nəqliyyat, su təchizatı, yol tikintisi, sənaye, ticarət və mədəniyyətdir. İki ölkə liderləri siyasi dialoqun səviyyəsinə yüksək qiymət verirlər.

İranda 2005-ci ildə mühafizəkar prezident M.Əhmədinejadın hakimiyyətə gəlməsi ilə iki ölkənin hərbi əlaqələri daha da gücləndi və İran tərəfi bu istiqamətə böyük maraq göstərdi (1).

Digər Mərkəzi Asiya dövləti - Qazaxıstan İran tərəfindən böyük iqtisadi nailiyyətlərlə xarakterizə olunan sabit və güclü tərəfdaş kimi nəzərdən keçirilir. İki ölkə arasında ikitərəfli ticari və iqtisadi əlaqələrin möhkəmlənməsinə təkan verən yaxşı siyasi münasibətlər qurulmuşdur. Bu gün Qazaxıstan mühüm neft ixracatçılarından birinə çevrilmişdir. Böyük qaz ehtiyatlarının mövcudluğu qaz nəqli marşrutlarının üzərində yerləşən və Avropa və Yaxın Şərq istiqamətlərində Qazaxıstana tranzit xidmətləri göstərə biləcək İranla əməkdaşlıq üçün zəmin yaradır.

Artıq 2014-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi 1 milyard dollar təşkil edirdi. Ticari-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə İran-Qazaxıstan Birgə Komissiyasının Qazaxıstanın paytaxtı Astanada 2015-ci ilin oktyabr ayında keçirilmiş iclasında kənd təsərrüfatı, neft-qaz sənayesi, mədəniyyət, mühəndis-texniki xidmətlər, bankalararası əməkdaşlıq üzrə layihələrin uğurla həyata keçirildiyi qeyd olunmuşdur. Qazaxıstanın xarici iqtisadi tərəfdaşları siyahısında İran artıq altıncı yerdədir. İran-Qazaxıstan əlaqələri qeyri-standart əməkdaşlıq üsullarının axtarışı ilə də seçilir.

Qazaxıstanın birinci prezidenti N.Nazarbayevin 1-12 aprel 2016-cı ildə Tehrana etdiyi səfər və İİR prezidenti H.Ruhani, ölkənin dini lideri Ayətullah Xameneyi ilə görüşləri Qazaxıstan-İran dialoqunun inkişafında ciddi addım kimi nəzərdən keçirilməlidir. Səfər çərçivəsində metallurgiya, mədənçıxarma, kənd təsərrüfatı, nəqliyyat və logistika, turizm, elm, təhsil və tibb sahələrində ümumi həcmi 2 milyard dollardan çox olan 66 ikitərəfli sənəd imzalanmışdır. Eyni zamanda, ticari əlaqələrin inkişafı üçün iş adamlarına vizaların verilməsi prosedurlarının sadələşdirilməsi məsələləri müzakirə olunmuşdur. Razılaşmaların əhəmiyyətli hissəsi nəqliyyat sahəsində müqavilələrlə bağlıdır. İran və Türkmənistan ərazilərindən malların tranziti üçün dəmiryolu parkının təqdim edilməsi, İran mallarının Çinin şərq limanlarına nəqli məsələləri müzakirə olunmuşdur. Qazaxıstan və İran arasında sərhəd keçidlərində terminallar və Bəndər-Abbas limanında terminallar qurmaq planlaşdırılır. İran səfərin nəticələrini ölkənin sanksiyalar sonrası inkişafı baxımından müsbət qiymətləndirmişdir (2).

Qonşu Özbəkistanla İran daha çox təmas nöqtələrinə malikdir. Ötən otuz il ərzində iki ölkənin əməkdaşlığına dair əsas sənədləri, eləcə də konkret saziş və müqavilələri əhatə edən möhkəm hüquqi baza yaradılmışdır.

Son vaxtlar İran Özbəkistanla yeni əməkdaşlıq sahələrini inkişaf etdirir. Belə ki, 2016-cı ilin mayında İran Milli Qazmaçılıq Şirkəti (NIDC) Özbəkistanda neft və qazın axtarışı üzrə tenderdə iştirak etməyi qərara aldı. Yaxın Şərqdəki mövcud vəziyyət, bölgədə neftin qiymətinin düşməsi şəraitində neft-qaz kəşfiyyatı layihələrinin bağlanması bu addımı atmağa təşviq etmişdi. Bu baxımdan iranlı mütəxəssislər müxtəlif ölkələrdə, ilk növbədə, Mərkəzi Asiyada beynəlxalq səviyyəli tenderlərdə iştirak etməyə çalışırlar. NİDC artıq Daşkənddə nümayəndəlik açmışdır və beynəlxalq layihələrini uğurla inkişaf etdirmək üçün özünün logistika parkını inkişaf etdirir (3).

2010-cu ildən sonra Birləşmiş Ştatların və Özbəkistanın yenidən yaxınlaşması İranda növbəti narahatlıq dalğasına səbəb oldu. İran Xarici İşlər Nazirliyinin başçısı M.Zərif bildirdi ki, iki ölkənin liderləri fikir ayrılıqlarını müzakirə və həll etmək üçün görüşməlidir, "bu, ikitərəfli əlaqələrin artmasına səbəb olacaq" (4).

İran və Qırğızıstan arasında münasibətlər xüsusi dinamikası ilə fərqlənmir. Qırğızıstanla İranın siyasi əməkdaşlığı, əsasən, bir sıra beynəlxalq təşkilatlarda hər iki ölkənin iştirakı çərçivəsində həyata keçirilir. İranın Qırğızıstanda iqtisadi və mədəni iştirakı yüksək səviyyədə olsa da, Rusiya, Çin və hətta Türkiyədən xeyli geri qalır. Siyasi sahədə məhdud əlaqələrin mövcudluğunu şərtləndirən mühüm məqam Qırğızıstan ərazisində Amerika hərbi hava bazasının yerləşməsidir.

Hazırda İranın Mərkəzi Asiyada regionunda siyasəti bölgədə Amerikanın hərbi iştirakı nəzərə alınmaqla həyata keçirilir. Bu, İranın regionda ABŞ-ın təsirinin genişlənməsinin arzuolunmazlığı məsələsində İranla yaxın və ya eyni mövqeyə malik olan Rusiya, Çin və Hindistanla əməkdaşlığı

inkişaf etdirməsini tələb edir. İran yalnız güclü Rusiyanın Mərkəzi Asiyada müxtəlif ölkələrin maraqlarının balansının təminatçısı ola biləcəyini əsas götürərək, bölgədə Rusiya liderliyinin qorunub saxlanılmasına anlayışla yanaşır.

Qafqaz regionu İranın beynəlxalq münasibətlərinin mühüm istiqamətini təşkil edir. Bu, İranın Cənubi Qafqaz ölkələri - Azərbaycan, Ermənistan və Gürcüstanla münasibətlərinin ümumi tarixi-mədəni keçmişinə əsaslanır.

İranın Cənubi Qafqaz bölgəsi ilə münasibətlərinə toxunarkən Ermənistandan başlayaq. İran və Ermənistan arasında ikitərəfli münasibətlər sistemində siyasi dialoq üstünlük təşkil edir. Ermənistan və İran dəfələrlə münasibətlərinin ümumi maraqlar, habelə regional və beynəlxalq məsələlərə dair mövqelərin yaxınlığı əsasında qurulduğunu bildirmişlər (5). İran üçün Ermənistanın İranın nüvə proqramına rəsmən dəstək verdiyini bildirən azsaylı ölkələrdən biri olması vacibdir. Bu təməl üzərində İranla dostluq əlaqələri qurulmuşdur. İki ölkə mədəni əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi önəm verir.

İran-Ermənistan dialoqu üçün ticari-iqtisadi əlaqələr də önəmlidir. Ermənistan Cənubi Qafqazda təsirini genişləndirmək və dərinləşdirmək istəyən güclü, ehtiyatlarla zəngin, nüfuzlu regional dövlətlə qonşuluğun üstünlüklərindən tam yararlanmağa çalışır. Ermənistan işgüzar dairələrinin nümayəndələri üçün İran İslam Respublikası ilə münasibətlərin qurulması olduqca perspektivli və etibarlı görünür. İran erməni dövlətinin ideoloji, siyasi, ərazi və ya başqa ziddiyyətlərinin olmadığı yeganə qonşusudur. Bundan əlavə, İran Yaxın Şərq regionunun bir çox ölkəsinə tranzit imkanlarını təmin edir. Ermənistan üçün İran cənuba, Yaxın Şərq, Cənub-Şərqi Asiya və digər bölgələrə açılan pəncərədir. Ermənistan İranın prioritet ixrac bazarı kimi qiymətləndirdiyi ölkələr sırasındadır.

İranla qonşuluğun verdiyi bu üstünlüklərdən çoxəsrlik yaxın qonşusu Gürcüstan da yararlanır. İranda hətta Gürcüstanla "ümumi tarixi keçmiş" haqqında fikirlər irəli sürülür (6).

RəsmiTbilisi 2008-ci il müharibəsi dövründə Tehranın hər bir ölkənin suverenliyinə və ərazi bütövlüyünə dəstək verdiyini rəsmən elan etdiyi və beynəlxalq normalara və sazişlərə sadiqliyini vurğuladığı təmkinli mövqeyini unutmur. Sonradan İran Rusiya tərəfindən dəstəklənən separatçı bölgələri tanımaqdan imtina etdi. Bununla o, heç şübhəsiz, Gürcüstanda nüfuzunu yaxşılaşdırdı və müəyyən dərəcədə bölgədə təsirini artırdı.

İran və Azərbaycan Respublikası arasında dialoq nisbətən fərqli şəkildə inkişaf edir. Hazırkı İran İslam Respublikası ərazisində çoxlu azərbaycanlı yaşayır. İki ölkənin xalqlarını qonşuluq telləri, dini eyniyyət, çoxəsrlik ortaq tarix birləşdirir.

İki ölkə arasındakı əməkdaşlıqdan danışarkən, bir neçə mərhələ fərqləndirilməlidir. 1991-1994-cü illəri əhatə edən birinci mərhələdə İran Azərbaycan Respublikasında siyasi və iqtisadi təsirini yaymaq siyasətini həyata keçirmişdir. Bu dövrdə siyasi, ticari və iqtisadi sahələrdə əməkdaşlıq qurulmuşdur. Növbəti üç il ərzində Azərbaycanda Qərbin mövqeləri gücləndi və Birləşmiş Ştatlarla fəal dialoq quruldu, bu da İranla ikitərəfli münasibətlərin zəifləməsinə gətirib çıxardı.

1997-ci ildə İranda Prezident S.M.Hatəminin rəhbərliyi altında islahatçıların hakimiyyətə gəlməsi Cənubi Qafqazda İran siyasətinin intensivləşməsinə səbəb oldu, nəticədə Azərbaycanla münasibətlərdə sabitlik yarandı. İran bu dövrdə Cənubi Qafqazda balanslaşdırılmış siyasət həyata keçirirdi. Xatəminin ikinci prezidentlik dönəmi (2001-2005) xüsusilə Xəzərin statusu ilə bağlı anlaşmanın əldə olunduğu siyasi sahədə ikitərəfli dialoqun dərinləşməsinə səbəb oldu. Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin 2009-cu ilin sonunda Tehrana səfəri nəticəsində qarşılıqlı ticarət dövriyyəsini 1 milyard dollara çatdırmaq qərara alındı.

2013-cü ilin yayında liberal H.Ruhaninin ölkədə hakimiyyətə gəlməsi ilə iki ölkə arasındakı yeni yaxınlaşmaya ümid yarandı.

İranın postsovet ölkələri ilə münasibətlərini xarakterizə edərkən Rusiya istiqaməti xüsusi fərqləndirilməlidir. İki ölkə arasındakı əlaqələr "fəallıq və tənəzzül dövrləri, iki qonşu xalqın təbii qarşılıqlı meyli və qarşı tərəfin niyyətlərinə şübhə"ilə seçilmişdir (7, s.262). 1991-ci ilin dekabr ayından etibarən İran SSRİ-nin varisi olan dövlət kimi Rusiya ilə münasibətlərini inkişaf etdirir.

Qeyd edək ki, Rusiya və İran arasında siyasi dialoqun ardıcıl inkişafını təsbit etmək çətindir. B.Yeltsinin prezidentliyi dövründə İran vektoru Rusiya xarici siyasətinin Qərb, əslində isə Amerika istiqamətinin kölgəsində qalırdı. Y.Primakovun Rusiyanın Xarici İşlər Nazirliyinin rəhbərliyinə gəlişi ilə Yaxın Şərq istiqaməti "yada düşdü" və İran tezliklə həm ticari-iqtisadi müstəvidə, həm də siyasi sahədə lazımi yerini tutdu. NATO-ya güclü cavab kimi düşünülən Rusiya-İran hərbi-siyasi alyansı ideyası formalaşmağa başladı və tədricən doktrinal ifadəsini tapdı. Bu ideya Rusiyada bir çox siyasətçilər tərəfindən dəstəklənir. Belə ki, Rusiya Liberal-Demokrat Partiyasının lideri V.Jirinovski "İranla strateji tərəfdaşlığı İslam dünyasında Rusiyanın əsas qayğısı" hesab edir (8, s.22).

Bütövlükdə Rusiya-İran dialoqu Amerikanın həm regional, həm də qlobal səviyyədə hər iki tərəfi qane etməyən fəallığına təsirli cavab ola bilər. "İran-Amerika ziddiyyətlərinin qalması... İranı.. çevik regional siyasət yürütməyə sövq edir"(9, s.129). Bu amil bir çox məsələlərdə mövqelərin üst-üstə düşdüyü Rusiya-İran siyasi dialoqunun reallıqları ilə təsdiqini tapır. Tərəflər vətəndaş müharibəsinə çevrilmiş Tacikistan münaqişəsinin həllində fəal əməkdaşlıq etmişlər. Rusiya Federasiyası və İran İslam Respublikası son nəticədə Tacikistanda sülhün qərarlaşmasına gətirib çıxaran kompromis həll yollarını axtarmaq məcburiyyətində qalmışlar.

İki ölkənin siyasi dialoqu baxımından onların Xəzər regionunda Qərbin mövcudluğundan narazılığı, xüsusilə Qərb şirkətlərinin Xəzərin bioloji və enerji ehtiyatlarının işlənməsində iştirakına müqaviməti önəmlidir. Hər iki ölkə Fars körfəzində ABŞ hərbi iştirakının qarşısının alınmasında birləşir. Rusiya və İran arasındakı siyasi əməkdaşlıq V.Putinin Rusiya prezidenti vəzifəsinə yenidən seçilməsi nəticəsində daha da güclənmişdir. V.Putinin xarici siyasət kursu çoxvektorlu yanaşmada ifadəsini tapan praqmatizm xüsusiyyətləri kəsb etmişdir. V.Putinin prezidentliyi dövründə bütün sahələrdə - siyasət, iqtisadiyyat, ticarət, mədəniyyət, təhsil, enerji, nəqliyyat və s. - İranla ikitərəfli dialoq davamlı şəkildə inkişaf etmişdir. Bu mərhələdə ikitərəfli münasibətlərin müqavilə-hüquqi bazasının əsasını 2001-ci ilin martında Moskvada Rusiya və İran prezidentləri - V.Putin və S.M.Xatəmi tərəfindən imzalanmış, 5 aprel 2002-ci ildə qüvvəyə minmiş Rusiya Federasiyası ilə İran İslam Respublikası arasındakı qarşılıqlı münasibətlərin əsasları və əməkdaşlığın prinsipləri haqqında Müqavilə təşkil edir. Bu sənəd fəal şəkildə həyata keçirilən siyasi dialoqun mahiyyətini müəyyən edir.

Hazırkı mərhələdə bu dialoqun əsas məzmunu qlobal və regional gündəliyin əsas problemləri, o cümlədən aktual çağırışlara və təhdidlərə qarşı mübarizə, Suriya, İraq və Əfqanıstanda vəziyyətin nizamlanması yolları ilə bağlı iki ölkənin mövqeyinin uzlaşması və ya yaxınlığı ilə müəyyən olunur.

2015-ci ilin iyul ayında altı beynəlxalq vasitəçi ilə İran arasında son razılaşmanın imzalanması ilə həmin sanksiyaların ləğvi yolu açıldı. Dekabrın 15-də Beynəlxalq Atom Enerjisi Agentliyinin (BAEA) ali orqanı - 35 ölkədən nümayəndələrin təmsil olunduğu İdarəçilər Şurası fövqəladə toplantısında İranın nüvə dosyesini və İranın nüvə proqramının mümkün hərbi komponenti məsələsini bağlayan qətnamə qəbul etdi. Eyni zamanda, İran istiqamətində BAEA tərəfindən daha əvvəl qəbul olunmuş bütün qətnamələr ləğv edildi. Bu qətnamə ilə BAEA İranın nüvə proqramının inkişafı ilə bağlı uzun illər kəskin diskussiyalara səbəb olmuş mübahisəli məsələləri aydınlaşdırmaq üçün lazım olan "yol xəritəsi"nin özünə aid hissəsini yerinə yetirdi. İran bu qərarın ölkənin üzərindən siyasi və iqtisadi sanksiyaların götürüləcəyinə səbəb olacağına ümid edirdi.

Bu fonda sanksiyalardan sonrakı dövrün iki ölkə arasında bütün mümkün sahələrdə əməkdaşlığın əhəmiyyətli dərəcədə genişləndirilməsi mümkündür. Bu baxımdan Rusiya prezidenti Vladimir Putinin 2015-ci ilin noyabrında Tehrana səfəri nəticəsində ciddi qərarlar qəbul edildi. Moskva İrana 5 milyard dollarlıq ixrac krediti verməyə hazır olduğunu bildirdi. Hər iki ölkə iqtisadiyyatın müxtəlif sahələrində sürətlə həyata keçirilməsi üçün 35 prioritet layihəni müəyyənləşdirdi. Rusiya prezidenti V.Putinin İran prezidenti H.Ruhani ilə görüşündə İran və Rusiya arasında əməkdaşlığa dair yeddi memorandum və digər sənədlər imzalandı.

Neft və qaz sahəsində intensiv əməkdaşlıq planlaşdırılır. İranın Neft Nazirliyinin rəhbərlərindən biri KİV-ə verdiyi müsahibədə Rusiyanın "Qazprom" və "LUKOYL" şirkətlərinin İranla müqavilələri yeniləməsi imkanlarından nikbinliklə söz açmışdı. İranın neft naziri Bijan Zangene bildirmişdi ki, İran Rusiyanı uzunmüddətli və strateji tərəfdaş kimi nəzərdən keçirir və sanksiyaların aradan qaldırılmasından sonra İranla Rusiyanın enerji sahəsində əməkdaşlığının daha da inkişaf edəcə-

yinə ümid edir. İran nazirinin sözlərinə görə, onun ölkəsi Moskvanın İran və Rusiya arasında neft və qaz sahəsində güclü və uzunmüddətli əlaqələr qurmaqda qərarlı olduğuna ümid bəsləyir: "Əvvəllər əldə edilmiş razılaşmaların təcrübədə həyata keçirilməsi və İran və Rusiya şirkətləri arasında əməkdaşlığın genişləndirilməsi vaxtı çatmışdır" (10).

Hökumətlərarası protokol əsasında iki ölkənin nüvə sahəsində intensiv əməkdaşlığı nəzərdə tutulur. Bu, Buşəhr AES-ə xidmətin davam etdirilməsinə aiddir. Rusiya və İran Buşəhr AES-in birinci enerji blokunun təhlükəsiz istismarı üçün texniki dəstəyin təşkili barədə razılığa gəlmişlər. Buşəhr-2 AES-in tikintisinə hazırlıq işləri barəsində razılaşma əldə olunmuşdur. Gələcəkdə ölkə daxilində yeni enerji bloklarının yaradılması qərara alınmışdır. "Dinc atom" layihələri çərçivəsində qarşılıqlı fəaliyyət "Rosatom" Dövlət Korporasiyası və İran Atom Enerjisi Təşkilatı arasında anlaşma memorandumu əsasında həyata keçiriləcəkdir. Sənaye sahəsində də Rusiya ilə İran arasında əməkdaşlığın genişləndirilməsi və birgə layihələrin həyata keçirilməsi planlaşdırılır. Rusiyanın sənaye və ticarət naziri D.Manturovun sözlərinə görə, ikitərəfli əməkdaşlıq avtomobil sənayesi, təyyarə istehsalı və gəmiqayırma kimi sahələrdə uğurla inkişaf edə bilər. "Rusiya İrana qarşı sanksiyaların ləğv olunmasından sonra İranla birgə sənaye layihələrinin həyata keçirilməsini davam etdirməyə tam hazırdır" (11).

Hərbi sahədə milyardlarla dollar məbləğində yeni müqavilələr nəzərdə tutulmuşdur. Medianın yazdığına görə, İran Rusiya silahlarına böyük maraq göstərir. "Onlar bütün istiqamətlərdə, demək olar ki, bütün silahlı qüvvələrin ciddi yenilənməsinə ehtiyac duyurlar. Hər şey yenilənmə, yeniləşdirmə tələb edir. İranın böyük silahlı qüvvələrə malik böyük bir ölkə olduğu nəzərə alınarsa, əlbəttə, söhbət çox böyük müqavilələrdən, milyardlardan gedir" (12).

İkitərəfli əlaqələrin intensivləşməsinə viza rejiminin sadələşdirilməsi mühüm təkan verəcəkdir. İki ölkə vətəndaşlarının ayrı-ayrı kateqoriyaları üçün vizasız gediş-gəliş haqqında hökumətlərarası saziş Tehranda 2015-ci il noyabrın 23-də Rusiya Prezidenti Vladimir Putinin İrana səfəri zamanı imzalanmışdır. Bu sənəd Rusiya Federasiyası və İran İslam Respublikası vətəndaşlarının qarşılıqlı səfərləri üçün şərtləri xeyli asanlaşdırır (13).

Lakinbütövlükdə iki ölkə arasında münasibətlər sadə və birmənalı deyildir. Ən müxtəlif vəziyyətlərdə hiss olunan etimadsızlıq qalmaqdadır, özü də D.Treninin fikrincə, İran tərəfindən inamsızlıq daha güclüdür. Bunun bir çox səbəbi mövcuddur: "Rusiya İranın ABŞ-a qarşı mübariz mövqeyini təqdir edir, eyni zamanda İranın nüvə proqramına nəzarət məsələsində Qərbə dəstək verir; BMT Təhlükəsizlik Şurasında Rusiya Federasiyası İrana qarşı sanksiyalara səs vermişdir. Moskva İran üçün ən böyük silah tədarükçüsüdür, lakin vaxtilə artıq vəsaitin ödənildiyi S-300 hava hücumundan müdafiə sistemlərinin göndərilməsini birtərəfli qaydada ləğv etmişdir. Eyni zamanda, Rusiya İranla konstruktiv danışıqlar aparır, xüsusilə postsovet məkanında təsir dairələrini bölüşdürə bilir, Hizbullah və ya HƏMAS-ı terrorçu təşkilat kimi tanımır, Suriya müharibəsində isə faktiki olaraq İranın müttəfiqi olmuşdur. Lakin İranda hökmran ideologiya, İran və Səudiyyə Ərəbistanı arasında qarşıdurmaya söykənən regional strategiya Moskvada rəğbət doğurmur. Öz növbəsində, Tehran Moskvanın məqsədlərini tam bölüşmür və onların əldə edilməsi yollarını həmişə təqdir etmir" (14).

Müasir dövrdəUkrayna-İran dialoqu sıfırdan başlamışdır, çünki Sovet İttifaqı dövründə Ukrayna xarici dövlətlərlə əlaqələr hüququnu Mərkəzə vermişdi. MDB-nin yaranmasından və müstəqil Ukrayna dövlətinin elan edilməsindən sonra 1991-ci il dekabrın 25-də İran Ukraynanın müstəqilliyini tanıdı. Səfirlik səviyyəsində diplomatik münasibətlərin qurulması haqqında protokol 1992-ci il yanvarın 22-də Kiyevdə imzalandı. Eyni zamanda, Ukrayna paytaxtında İran səfirliyi açıldı. Həmin ilin oktyabr ayında Tehranda Ukrayna səfirliyi fəaliyyətə başladı. Münasibətlərin qurulması yüksək səviyyədə əlaqələrin dinamik inkişafı ilə müşayiət olunurdu. 1992-ci ilin aprel ayında Ukrayna prezidenti L.Kravçuk İranı ziyarət etdi, sonra isə Ukrayna parlamentinin rəhbəri və xarici işlər naziri Tehrana gəldi. İran Xarici İşlər Nazirliyinin başçısı Əli Əkbər Velayəti Kiyevə ilk rəsmi səfəri 1992-ci ildə həyata keçirdi. 1994-cü ilin dekabrında İran parlamentinin sədri Əli Əkbər Natuq Nuri Ukraynaya səfər etdi. 2002-ci ilin oktyabrında İran İslam Respublikasının prezidenti Seyid Məhəmməd Xatəmi iki günlük səfərlə Kiyevdə oldu.

Ukrayna və İran ikitərəfli münasibətlərin dərinləşməsində maraqlıdır. Ötən illər ərzində onlarla nazir, millət vəkilləri, ictimai xadimlər və müxtəlif nümayəndə heyətləri hər iki ölkəni ziyarət etmişlər. Bu dövrdə müxtəlif sahələrdə əməkdaşlıq haqqında 90-dan çox ikitərəfli saziş imzalanmışdır. Bu, iki dövlət arasında qarşılıqlı fəaliyyət üçün möhkəm hüquqi baza formalaşdırmışdır. Ukraynalı analitiklərin fikrincə, əməkdaşlıq planlarının həyata keçirilməsinin dinamikası Ukrayna rəhbərliyinin coğrafi uzaqlıq səbəbilə İranla əlaqələrin inkişafında maraqlı olmaması səbəbindən "ləngiyir". Buraya Ukraynanın daxili siyasi qeyri-sabitliyi də əlavə edilir. Bununla yanaşı, qeyd edək ki, bu sahədə ikitərəfli münasibətlər dövlətlər arasındakı münasibətlərin inkişafına təsir göstərəcək prinsipial ziddiyyətlərlə mürəkkəbləşmir. Lakin aydındır ki, İranla dialoqun Ukrayna versiyası Rusiyadan xeyli geridə qalır. Əlbəttə, bunun üçün kifayət qədər obyektiv səbəblər mövcuddur: ölkələrin miqyasında fərq, əməkdaşlığın səviyyəsi, ölkələrin iqtisadi potensialı və digər mühüm amillər.

Rəsmi Kiyevhesab edir ki, İranı Ukrayna ilə əməkdaşlığa təşviq edə biləcək qarşılıqlı faydalı şərtlər yaradılmalıdır. İran iqtisadi potensialı, investisiya əməkdaşlığı perspektivləri və energetika sektorunda qarşılıqlı əlaqələri səbəbindən Ukrayna üçün mühüm iqtisadi tərəfdaşdır. Bu mənada İranın beynəlxalq sanksiyaların təsirindən qurtulması əlverişli vəziyyət yaradır və ikitərəfli Ukrayna-İran əlaqələrini keyfiyyətcə yeni səviyyəyə qaldırmaq üçün istifadə olunmalıdır.Əslində, bu, Ukrayna biznes mühitinə İran bazarında işə başlamaq üçün bir siqnaldır. Artıq ilk addım atılmışdır: 2015-ci ilin sentyabrında Ukrayna işgüzar dairələrinin təxminən 50 nümayəndəsi İran-Ukrayna münasibətlərinin intensivləşdirilməsi üçün zəmin yaratmaq məqsədilə İrana səfər etmişdir. İqtisadi inkişaf və ticarət naziri A.Abromaviçus sənaye, metro tikintisi, maşınqayırma sahəsində əməkdaşlığın böyük potensialını qeyd etmişdir. Ukrayna hakimiyyətinin və ekspertlərinin rəyinə görə, ABŞ və Avropa İttifaqı tərəfindən İrana qarşı ticari və iqtisadi embarqonun ləğv edilməsindən sonra Ukrayna üçün yeni ticarət imkanları açılır. "Ukrayna İran iqtisadiyyatına yeni impulslar verəcək ölkəyə çevrilə bilər" (15). Son illərdə qarşılıqlı ticarətin həcmi yaxşı göstəricilərə malikdir. İki ölkə arasında əməkdaşlığın ən inkişaf etmiş sahəsi kənd təsərrüfatıdır. İran və Ukrayna elmi-texniki əməkdaşlığa və kənd təsərrüfatı sahəsində yeni texnologiyaların tətbiqinə xüsusi diqqət yetirirlər.

Siyasi dialoq iki ölkə arasında müsbət əlaqələr üçün vacibdir. Onun əsas tərkib hissəsi balanslaşdırılmış xarici siyasətdir. Bu istiqamətdə Ukrayna Qərblə tərəfdaşlığı Şərq vektorunda fəal siyasətlə uzlaşdırmaq niyyətindədir. Regional dövlətlər əsas götürülür, bu zaman İrana aparıcı rollardan biri ayrılır. İran və Ukrayna xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələr zamanı müntəzəm olaraq gündəlikdə olan aktual məsələlərə dair mövqelərin uyğunluğu və ya yaxınlığı ifadə olunur.

İran isteblişmentinin Ukrayna hadisələrinə münasibəti Moskva və Tehran arasındakı qarşılıqlı münasibətlərin strateji xarakterindən irəli gəlir. İran Rusiya ilə siyasi dialoqun mövcud səviyyəsinə təhlükə yaranmasını istəmir. Buna görə də Tehran balanslaşdırılmış mövqe tutmağa üstünlük verir. Analitiklərin fikrincə, İran Xarici İşlər Nazirliyi Ukrayna hadisələrinə münasibətdə İranın "Nə Qərb, nə Şərq, İslam" xarici siyasət konsepsiyasına uyğun olaraq "aktiv neytrallıq" mövqeyini seçdi (16).

Belarus və İran İslam Respublikası arasında sabit dialoq qurulmuşdur, iki ölkə beynəlxalq aləmdə müsbət əməkdaşlığı inkişaf etdirir. Minsk İranla münasibətlərin qurulmasından sonra ilk illərdə Tehrandan daha fəal hərəkət edirdi. İran postsovet məkanında əməkdaşlıq üçün kifayət qədər ehtiyatlara malik deyildi, buna görə də keçmiş Sovet İttifaqının Avropa hissəsində səylərini Rusiya istiqamətinə yönəltmişdi.

İranda islahatçıların hakimiyyəti dövründə Belarusla münasibətlər formalaşmağa başladı. İran prezidentinin Belarusa ilk səfəri 2004-cü ildə baş tutdu. Belarus lideri A.Lukaşenko isə 2005-ci il prezident seçkilərindən sonra Tehrana səfər edən ilk Avropa ölkəsi prezidenti oldu.

Belarus-İran dialoqunun başlanğıcından etibarən iqtisadi əməkdaşlıq siyasi əməkdaşlıqdan geri qalırdı. İki ölkə liderlərinin rəsmi səfərləri zamanı ikitərəfli dialoqun iqtisadi məzmununun fəallaşdırılması barədə bəyanatlar səslənirdi. İqtisadi əməkdaşlığın müəyyən planlarına toxunaraq qeyd etmək lazımdır ki, Belarus prezidentinin 2006-cı ilin noyabrında Tehrana səfəri zamanı ilk dəfə energetika sahəsində əməkdaşlığın vacibliyi vurğulandı, neft sənayesində əməkdaşlığa dair iki hökumət arasında anlaşma memorandumu imzalandı. Ümumiyyətlə 2006-cı ilin noyabrında Belarus prezidentinin İrana səfəri müxtəlif sahələrdə dialoqun həyata keçirilməsi ilə bağlı bir sıra mühüm sənəd-

lərin imzalanması ilə müşayiət olundu. Bu səfər zamanı əməkdaşlığın hüquqi bazası xeyli zənginləşdirildi. 2007-ci ilin mayında İran Prezidenti Mahmud Əhmədinejadın Belarusa cavab səfəri baş tutdu. Yüksək səviyyəli görüşlər nəticəsində iqtisadi tərəfdaşlığı əngəlləyən bir çox maneələr aradan qaldırıldı.

Belarus və İran tez-tez beynəlxalq problemlər, xüsusilə qarşılıqlı maraq doğuran məsələlər barəsində fikir mübadiləsi aparırlar. Belarus Respublikası 14 iyul 2015-ci ildə Vyanada İranın ətrafında nüvə böhranını həll etmək üçün imzalanmış razılaşmaya operativ reaksiya verərək, altı beynəlxalq vasitəçi və İranın əldə etdiyi müqaviləni alqışladı. Belarus dəfələrlə İranın nüvə proqramı ilə bağlı razılaşmanın imzalanmasından sonra ikitərəfli əməkdaşlığın əlavə dinamika qazanacağına dair mövqeyini bəyan etmişdir. Yaxın Şərqdəki vəziyyətlə əlaqədar iki ölkənin mövqeyində də çoxlu oxşarlıqlar mövcuddur. Yaxın Şərqdəki vəziyyətlə bağlı fikirlərin yaxınlığı iki ölkənin Suriyaya dair mövqeyində də əksini tapmışdır. Müxtəlif formatlarda Belarus-İran görüşləri zamanı tərəflər regional problemlərin həllinə iki ölkənin yanaşmalarının daha da uyğunlaşdırılmasını dəstəkləmişlər.

Beləliklə, ötən otuz il ərzində İran İslam Respublikasının postsovet ölkələri ilə əməkdaşlığı bu ölkənin bütün beynəlxalq fəaliyyətinin çox mühüm hissəsinə çevrilmişdir.

## ƏDƏBİYYAT


1. Калишевский М. Таджикистан: Опасные химеры «арийства». – ferghana.ru, 7 сентября 2006 г.
2. Президент Казахстана посетил Иран; подписаны соглашения на сумму свыше 2 млрд. долларов [Электронный ресурс]. – Режим доступа:http://www.fergananews.com/news/24648, 12 апреля 2016 г.
3. https://tengrinews.kz/kazakhstan_news/kazahstan-i-iran-podpisali-soglasheniya-na-milliard-dollarov-292386
4. Зариф призывает к расширению тегерано-ташкентских связей – Iran.ru, 18 апреля 2015 г.
5. Иран готов способствовать миру на Южном Кавказе –iran.ru, 5 мая 2014 г.
6. Kornely K. Kakachia. Iran and Georgia: Genuine Partnership or Marriage of Convenience? // PONARS Eurasia Policy Memo. September 2011. № 186. – Tbilisi State University [Электронныйресурс]. – Режимдоступа:
7. Сажин В. Россия и Иран: проблемы стратегической перспективы //Ближний Восток и современность.Вып.4. –М., 1997.
8. Жириновский В. Перспективы развития российско-иранских взаимо отношений. – М., 1999.
9. Юлдашева Г. Иран в центральноазиатской политике России // Центральная Азия и Кавказ. 2014.Том17.Вып. 3.

۱۰. بیژن زنگنه :ایران به روسیه به عنوان یک شریک طولانی مدت و استراتژیک نگاه می کند

http://iribnews.ir/NewsBody.aspx؟ID=103971 ،2015 نوامبر23 / Бижан Зангене: Иран смотрит на Россию как на долговременного и стратегического партнера. http://iribnews.ir/NewsBody.aspx?ID=103971, 23 ноября 2015 г.

11. Министр промышленности и торговли России посетит с визитом Иран. – isna.ir, 16 декабря 2015 г.
12. Кожин. Россия и Иран могут заключить миллиардные военные контракты. – Iran.ru, 7 декабря 2015 г.
13. Россия и Иран упростили визовый режим. – Irna.ir, 24 ноября 2015 г.
14. Тренин Д. Россия на Ближнем Востоке: задачи, приоритеты, политиче-ские стимулы. – Московский центр Карнеги.

http://carnegie.ru/2016/04/21/ru-63388/ixby?mkt_tok=eyJpIjoi

15. Украина договорилась о сотрудничестве с Ираном в сельском хозяйстве (см.: Независимое бюро новостей (Украина), 25 апреля 2013 г.).

16. Александров А. О реакции в Иране на украинские события. – Iimes.ru, 24 марта 2014 г.

***XÜLASƏ***

***Əlimusa İBRAHİMOV***

***İranın postsovet məkanında siyasətinin ümumi xarakteristikası***

***Açar sözlər:*** *İran, islam, postsovet məkanı, Rusiya, Qərb*

Məqalədə müasir dövrdə İran İslam Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən bəhs edilir. Müəllif İran ətrafında ümumi geosiyasi mənzərəni araşdırır və Tehranın postsovet dövlətlərinə münasibətdə xarici siyasətinin əsas prinsiplərini izah edir. İranın Rusiya və digər postsovet ölkələri ilə son münasibətlərində baş verən dəyişikliklərə xüsusi diqqət yetirilir.

***РЕЗЮМЕ***

***Алимуса ИБРАГИМОВ***

***Общая характеристика политики Ирана на постсоветском пространстве***

***Ключевые слова:****Иран, ислам, постсоветское пространство, Россия, Запад*

В статье рассматриваются основные направления внешней политики Исламской Республики Иран в современную эпоху. Автор рассматривает общий геополитический ландшафт вокруг Ирана и разъясняет основные принципы внешней политики Тегерана в отношении постсоветских государств. Особое внимание уделяется изменениям, произошедшим в недавних отношениях Ирана с Россией и другими постсоветскими странами.

***SUMMARY***

***Alimusa IBRAHIMOV***

***General Characteristics of Iran's Policy in the Post-Soviet Space***

***Keywords****: Iran, Islam, the post-Soviet space, Russia, West*

The article discusses the main directions of the foreign policy of the Islamic Republic of Iran in the modern era. The author examines the general geopolitical landscape around Iran and explains the basic principles of Tehran's foreign policy towards the post-Soviet states. Special attention is paid to the changes that have taken place in recent Iranian relations with Russia and other post-Soviet countries.